# 11-ci CƏNUBI QAFQAZ MEDIA KONFRANSI

***Rəqəmsal Texnologiyalar Dövründə İctimai Yayım Xidməti***

10-11 noyabr 2014-cü il, Tbilisi, Gürcüstan

## Tövsiyələr

ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin Ofisinin Gürcüstanın paytaxtı Tbilisidə 10-11 noyabr 2014-cü il tarixlərində təşkil etdiyi 11-ci Cənubi Qafqaz Media Konfransının bir araya gətirdiyi Azərbaycan, Ermənistan və Gürcüstandan olan 70-dən artıq jurnalist, hökumət nümayəndəsi, vətəndaş cəmiyyəti və akademik dairələrin təmsilçisi, beynəlxalq mütəxəssislər, eləcə də Ukrayna, Qırğızıstan, Moldova və Kazaxstandan olan iştirakçıların apardığı müzakirələr zamanı müəyyənləşdirilmiş tövsiyələr bu sənəddə ümumiləşdirilib.

Konfrans rəqəmsal texnologiyalar dövründə ictimai yayım xidmətinin dəyərləri, məzmunu, maliyyələşməsi, idarə olunması və tənzimlənməsi məsələlərinin müzakirəsinə həsr olunub.

Konfrans iştirakçılırının gəldiyi razılaşmaya əsasən:

- İctimai yayım xidmətləri dövlətə, siyasi qüvvələrə və ya kommersiya və digər maraqlara deyil, vətəndaşlara xidmət etməlidir.

- İctimai yayım xidmətləri həmişə öz fəaliyyətlərində dəqiqlik, obyektivlik, balans, hesabatlılıq və redaksiya müstəqilliyi prinsiplərini rəhbər tutmalıdır.

- İctimai yayım xidmətləri bütün media platformalarda informasiyanın ən aktual və etibarlı mənbəsi kimi tanınması üçün səylərini əsirgəməməlidir.

- İctimai yayım xidmətləri daha geniş auditoriyanı əhatə etmək üçün bütün mümkün komunikasiya və şəbəkə xidmətləri (peyk, İnternet, kabel və yerüstü) vasitəsilə proqramlarını yayımlamalıdır.

- İctimai yayım xidmətləri bütün yayım platformalarının rəqəmsal yayıma keçməsini mediada plüralizmin gücləndirilməsi üçün yeni imkan kimi nəzərdən keçirməlidir.

- İctimai yayım xitmətlərinin rəqəmsallaşmasını asanlaşdırmaq üçün hökumətlər öz qanunvericilik və tənzimləmə aktlarına müvafiq müddəaları daxil etməlidir.

- İnternet və digər platformalar ictimai yayım xidmətlərinin ənənəvi proqramlarına çıxışı təmin etməklə yanaşı, yeni məzmun xidmətlərini də göstərməlidir.

- İctimai yayım xidmətləri əks əlaqə yaratmaq, auditoriya ilə debatlarda iştirak etmək və dialoq yaratmaq üçün internet və sosial mediadan istifadə etməlidir.

- Cəmiyyətin bütün təbəqələrinə diqqət yetirməklə, ictimai yayım xidmətləri öz auditoriyalarının ehtiyaclarını və məmnuniyyət dərəcəsini qiymətləndirməyə çalışmalıdır.

- İctimai yayım xidmətləri öz istehsalı olan materiallara və yerli məzmuna, eləcə də öz auditoriyasının mədəni, dini və dil müxtəlifliyini əks etdirmək üçün bütün sosial qruplara yönəlmiş fərqli proqramlara önəm verməlidir.

- Çoxmillətli və çoxdilli ölkələrdə ictimai yayım xidmətləri proqramlarını müxtəlif dillərdə hazırlamalı və kadrların seçilməsi siyasətində çoxmillətliliyi nəzərə almalıdır.

- İctimai yayımın verilişlərinə gənc auditoriyanın diqqətini cəlb etmək üçün intermetdə yayılacaq xüsusi proqramlar hazırlanmalıdır.

- İctimai yayım xidmətlərinin maliyyələşməsi orta vadedə yetərli, zəmanətli, şəffaf və təxmin edilə bilən, eləcə də siyasi və kommerisya maraqları və təzyiqdən azad olmalıdır.

- Audiovizual mediada artan rəqabəti nəzərə alaraq, ictimai yayım xidmətləri daha geniş auditoriyaya çıxmaq üçün yeni texnologiyalardan istifadəni nəzərdən keçirməlidir.

- Ictimai yayım xidmətlərinin şuralarına və onların tənzimləyici orqanlarına təyinatlar və seçkilər şəffaf olmalıdır, ictimaiyyətin geniş spektrini əhatə etməlidir.

- İctimai yayım xidmətlərinin redaksiya və əməliyyat qərarlarının bütövlüyü lazımi səviyyədə qorunmalıdır.

- İctimai yayım xidmətlərinə aid bütün sənədlər, proqramlar, qərarlar və tövsiyyələr ictima nəzarət naminə internetdə yerləşdirilməlidir. İctimaiyyətlə qarşılıqlı əlaqə sistemi mövcud olmalıdır. Bu sistemdə, yayım xidmətinin strukturunda fəaliyyət göstərən ombudsman və ya oxşar institut da daxil olmaqla, şikayətləri qəbul etmək, düzəlişlər və təkliflər vermək, eləcə də münaqişəli vəziyyətlərin həlli istiqamətində çalışmaq imkanına malik effektiv özünütənzimləmə mexanizmi fəaliyyət göstərməlidir.